*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 sentyabr 2018-ci il № 73 (2289) Qiyməti 25 qəpik


## Rəsmi xronika

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Görüşdə Azərbaycan ilə NATO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, Azərbaycan Prezidenti İlham Əliyevin NATO mənzilqərargahına səfərlərinə toxunuldu, dövlətimizin başçısının son səfərinin önəmi qeyd olundu. Bu ilin iyulunda NATO-nun Brüsseldə keçirilən Zirvə toplantısında Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstəyin ifadə olunması yüksək qiymətləndirildi.*

*Söhbət zamanı Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı əməliyyatlara verdiyi dəstək yüksək dəyərləndirildi, Əfqanıstana daşımalar sahəsində Azərbaycanın rolu xüsusi vurğulandı, ölkəmizin Əfqanıstandakı missiyalara nəqliyyat, logistik dəstəyindən danışıldı və eləcə də Azərbaycanın Əfqanıstan hökumətinə müxtəlif sahələrdə göstərdiyi yardımların əhəmiyyəti qeyd olundu və Azərbaycanın göstərdiyi bütün bu səylərə görə minnətdarlıq ifadə edildi.*

* * *

*✓Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçiriləcək təntənəli iclasda iştirak etmək üçün ölkəmizə səfərə gələn Cibuti Milli Assambleyasının sədri Məhəmməd Əli Humədi, Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanimi, Pakistan Senatının sədri Məhəmməd Sadiq Sancarini, Bolqarıstan Milli Assambleyasının sədri xanım Tsveta Karayançevanı, Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekovu, Misir Nümayəndələr Palatası sədrinin birinci müavini Mahmud Əhməd Şərifi və ATƏT Parlament Assambleyasının prezidenti George Tseretelini qəbul edib.*

**AZƏRTAC-ın materialları əsasında**

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasındadır



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Cənub bölgəsinə səfəri çərçivəsində Biləsuvar rayonunda olub və ictimaiyyət nümayəndələri ilə görüşüb. Prezident İlham Əliyev rayon sakinləri qarşısında çıxışı zamanı ordu quruculuğu məsələlərinə də toxunub.*

"Əlbəttə ki, ordu quruculuğu ilə bağlı məsələlər öz həllini tapır. Bu gün Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasındadır. İyun ayında Azərbaycan Milli Ordusunun 100 illiyinə və bir neçə gün bundan əvvəl Bakının işğalçılardan azad olunmasına həsr edilmiş hərbi paradlar bizim gücümüzü, qüdrətimizi göstərib. Əlbəttə, bizim ordumuzun bu səviyyədə olması hər bir vətəndaş üçün qürur mənbəyidir.

Bu gün bizim tədbirdə Milli Qəhrəman Mübariz İbrahimovun atası iştirak edir. Ona mən xüsusi minnətdarlığımı bildirmək istəyirəm ki, onun ailəsində Milli Qəhrəman, bizim unudulmaz əsgərimiz, qəhrəmanımız Mübariz böyüyüb, tərbiyə alıb, Vətən uğrunda döyüşüb, Vətən uğrunda həlak olub, şəhid olub. Təkbaşına bir çox işğalçını məhv edərək şəhidlik zirvəsinə ucalıbdır. O, bilirdi ki, ölümə gedir, bilirdi ki, o döyüşdən sağ-salamat çıxmayacaq. Buna baxmayaraq, canından keçdi və düşmənə Azərbaycan əsgərinin hansı keyfiyyətə malik olduğunu nümayiş etdirdi. Biləsuvar rayonu fəxr edə bilər ki, belə gözəl övlad yetişdirib və bu gün Azərbaycan Ordusunda vətənpərvərlik ruhunun yüksək səviyyədə olması Mübariz kimi övladlarımızın addımları, qəhrəmanlığı nəticəsində olmuşdur".

Prezident, Ali Baş Komandan İlham Əliyev çıxışına davam edərək bildirib ki, bu gün Ermənistan ordusu bizimlə rəqabət apara bilməz. "Ermənistan indi çox ağır vəziyyətə düşüb. İyirmi il Ermənistana rəhbərlik etmiş kriminal diktatura rejimi çöküb. Mən dəfələrlə demişdim ki, Ermənistanı quldur dəstə idarə edir və bu gün bunu erməni xalqı deyir. Ancaq əfsuslar olsun ki, Ermənistanda rəhbərliyə gəlmiş yeni simalar öz məsuliyyətini dərk etmir, sarsaq bəyanatlar verirlər və təmas xəttində, Ermənistan-Azərbaycan sərhədində gərginliyə rəvac verən addımlar atırlar. Azərbaycan Ordusu onlara layiqli cavabını verir, verəcək, necə ki, 2016-cı ilin aprel döyüşlərində onları yerinə oturtdu, torpaqlarımızın bir hissəsini azad etdi, bu ilin may ayında Naxçıvan istiqamətində uğurlu əməliyyat nəticəsində böyük ərazi nəzarətimizə keçdi. Bundan sonra da biz onlara lazım olan vaxtda tutarlı cavablar verəcəyik. Düşmən bilir ki, bizim qarşımızda duruş gətirə bilməz. Baxın, bir neçə gün bundan əvvəl onların silahlı təxribatı nəticəsində Ermənistan-Azərbaycan sərhədində atışma olubdur və əsgərlərimiz onlara elə dərs veriblər ki, çətin ki, yaxın günlərdə özlərinə gəlsinlər".

Azərbaycanın dövlət başçısı əminliklə qeyd edib ki, biz bu istiqamətdə siyasətimizi ardıcıl olaraq aparacağıq, ordumuzu daha da gücləndirəcəyik, daha da böyük vəsait ayıracağıq və ordumuzun döyüş qabiliyyətini daha da möhkəmləndirəcəyik. "Nümayiş etdirilən paradda bizim texniki imkanlarımız, əsgər-zabitlərimizin hazırlığı düşmənə yaxşı bir siqnaldır ki, otursun yerində, yoxsa, axırı pis olar.

Biz isə bundan sonra da uğurla inkişaf edəcəyik. Ordu quruculuğu, iqtisadi potensialın, beynəlxalq mövqelərimizin möhkəmlənməsi - bütün bu istiqamətlər üzrə uğurlu siyasət aparılır. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir, sabitlik adasıdır, təhlükəsizlik adasıdır, inkişaf, quruculuq yeridir. Bunun təməlində Azərbaycan xalqının zəhməti, xalq-iqtidar birliyi dayanır".

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətin döyüş hazırlığını yüksək qiymətləndirib

*Bu gün ordu quruculuğu sahəsində aparılan islahatlar sayəsində Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifə kimi ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Güclü ordunun formalaşması güclü iqtisadiyyatdan keçdiyinə görə əsas diqqət ölkənin iqtisadi qüdrətinin artırılmasına yönəlib. Onun nəticəsidir ki, Azərbaycan dövləti beynəlxalq təşkilatların, Azərbaycan Ordusu isə dünya ordularının reytinqində aparıcı yerlərdən birini tutur.*



Göstərilən diqqət və qayğı nəticəsində ordumuz ən müasir silahlarla, texnikalarla təchiz edilib. Bu silah və texnikaların arasında Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar da yer alır və ordumuzun potensialının gücləndirilməsinə xidmət edir.



Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etmələridir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan ölkə və ordu rəhbərliyi bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Müasir səviyyədə qurulan ordu həm müstəqilliyin möhkəmlənməsində, həm də ölkənin bölgədə geopolitik güc mərkəzinə çevrilməsində önəmli rol oynayır. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "... Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq... Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıqlar, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

Ordu quruculuğu elə bir spesifik sahədir ki, burada iş yalnız iqtisadi imkanlardan kifayət qədər bəhrələnməklə bitmir. Azərbaycan öz ordusunun gücünü, kadrların hərbi peşəkarlığını daim artırır, hərbi qüdrətini yüksəldir. Müşahidələr göstərir ki, Azərbaycan özünün potensial hərbi üstünlüyünü real nəticəyə çevirmək mərhələsinə qədəm qoyub.

Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi ilə bağlı, eyni zamanda Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr edilmiş paradlar da Azərbaycan Ordusunun gücünü və qüdrətini nümayiş etdirdi. Həmin hərbi paradlar ordunun yüksək döyüş qabiliyyətini nümayiş etdirməklə yanaşı, vətənpərvərlik əhval-ruhiyyəsini də sübut etdi. Eyni zamanda, ölkədə ordu quruculuğunun yüksək səviyyədə təşkil olunmasının əyani nümayişi oldu. Azərbaycan Ordusunun qüdrətini son illərdə keçirilən hərbi təlimlər və hərbi əməliyyatlar da sübut edir. Ermənistan tərəfinin təxribatlarının qarşısı uğurlu əks-hücum əməliyyatları ilə alınır. Bu isə o deməkdir ki, ordumuz istənilən an işğal altındakı torpaqları düşməndən azad etməyə, düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir.

2016-cı ilin aprelində Ermənistanın törətdiyi növbəti hərbi təxribatın qarşısını Azərbaycan Ordusunun şəxsi heyəti vaxtında aldı və düşmənə layiqli cavab verdi. Keçirilən əks-hücum əməliyyatı nəticəsində Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. 2018-ci ilin mayında ordumuz Naxçıvanda da tarixi uğur əldə etdi və 11 min hektar ərazini uğurlu əməliyyat nəticəsində düşməndən azad etdi.

Bu gün Azərbaycan Ordusu müxtəlif formalı təlimlərə üstünlük verməklə döyüş hazırlığını lazımi səviyyədə saxlamağa çalışır. Eyni zamanda, təlimlər zamanı qoşunların yüksək döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, onların yenidən qruplaşması üzrə tədbirlərin keçirilməsi, həmçinin döyüş və maddi-texniki təminat məsələləri də yoxlanılır. Göründüyü kimi, ordu quruculuğunu inkişaf etdirmək, döyüş hazırlığını artırmaq Azərbaycan Ordusunun qarşısında duran vacib məsələdir.

Ona görə də, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə sentyabrın 17-dən Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.



Sentyabrın 22-dək davam edən təlimlərə 20 mindən artıq şəxsi heyət, 200-dən çox tank və digər zirehli texnika, 120-dən çox müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 10-dək qırıcı və bombardmançı, 20-dək müxtəlif təyinatlı ordu aviasiyası cəlb edilib.

Genişmiqyaslı təlimlərin keçirilməsi planına uyğun həyəcan siqnalı ilə qaldırılan qoşunların hərəkəti, idarə edilməsi tələblərə uyğun olaraq, gizli və operativ şəkildə həyata keçirilib.

Keçirilən təlimlərdə qoşunlar cəmləşmə rayonlarını tutub və qruplaşmalar yaradılıb. Qoşunların komanda idarəetmə məntəqələrində döyüş fəaliyyəti təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, keçirilən təlimlərə rəhbərlik etmək üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlər keçirilən bölgədə olub.



Müdafiə naziri və nazirliyin digər rəhbər heyəti hərbi hissənin ərazisində ucaldılan ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edib, qarşısına güldəstələri qoyaraq hörmət və ehtiramlarını ifadə ediblər.

Sonra general-polkovnik Zakir Həsənov müxtəlif poliqonlar və təlim sahələrində keçirilən təlimin senarisinə uyğun olaraq qarşıya qoyulan məqsəd və vəzifələr barədə məruzələri dinləyib.

Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə və təlim iştirakçılarına bir daha çatdıran Müdafiə naziri genişmiqyaslı əməliyyat-taktiki təlimlərin təşkili və keçirilməsi ilə bağlı müvafiq göstərişlər verib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlərin keçirildiyi bölgələrdə səhra şəraitində yerləşdirilən hərbi hissələrin şəxsi heyətinin, döyüş texnikasının, aviasiya vasitələrinin, raket və artilleriya qurğularının döyüşə hazırolma və döyüş qabiliyyətini yoxlayıb.

Genişmiqyaslı təlimlərin planına əsasən müharibə şəraitinə uyğun yaradılmış komanda idarəetmə məntəqələri və müxtəlif poliqonlardakı təlim nöqtələrinə baş çəkən Müdafiə naziri şəxsi heyətin, silah-sursatın və döyüş texnikasının təlimlərdə iştirakı, eləcə də tapşırıq və sərəncamların dəqiq icra olunması ilə bağlı müvafiq göstərişlər verib.

Təlim prosesini izlədikdən sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti qoşunların təmas xəttində yüksək dağ zirvələrində yerləşən bölmələrin döyüşə hazırlığını yoxlayıb.

Cəbhənin bu istiqamətindəki əməliyyat şəraiti barədə ətraflı məruzələri dinləyən Müdafiə naziri üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib.

Dağlıq ərazidə və çətin iqlim şəraitində düşmənlə qarşıdurma xəttində yerləşən bölmələrdə hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraiti ilə maraqlanan Müdafiə naziri qış mövsümünə zəruri hazırlıq işlərinin vaxtında və keyfiyyətlə icra edilməsi barədə vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

Hərbi xidmətin və döyüş növbətçiliyinin təşkilini yoxlayan general-polkovnik Zakir Həsənov xidmətdə fərqlənən bir qrup hərbçiyə Ali Baş Komandanın adından qiymətli hədiyyələr təqdim edib.

Genişmiqyaslı təlimlərin planına uyğun olaraq müxtəlif poliqonlarda və müasir avadanlıqlarla təchiz edilmiş təlim sahələrində gündüz, gecə vaxtı və məhdud görmə şəraitində döyüş atışları icra olunub.

Motoatıcı, tank, raket-artilleriya, zenit-raket bölmələri, hava hücumundan müdafiə vasitələri, aviasiya, eləcə də digər birləşmələr silah və texnikanın tətbiqi ilə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Müasir ümumqoşun döyüşünün prinsiplərinə riayət edilməklə, mürəkkəb relyef şəraitində və şərti düşmənin ehtimal olunan fəaliyyəti nəzərə alınaraq qoşunların, eləcə də idarəetmə sistemlərinin qarşılıqlı əlaqədə effektiv tətbiqi həyata keçirilib. Təlimlərdə, həmçinin hava desantının döyüş tətbiqi üzrə tapşırıqlar da icra olunub.

Müdafiə Nazirliyinin rəhbərliyi təlimlərə cəlb olunan qoşunların peşəkarlığını və şəxsi heyətin hazırlığını yüksək qiymətləndirib.

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Müdafiə naziri NATO baş katibinin müavini ilə görüşüb

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Azərbaycan-NATO əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayan Müdafiə naziri qeyd edib ki, Alyansın Cənubi Qafqazda təhlükəsizliyə dair tutduğu prinsipial mövqeyi regional sülh və sabitlik üçün mühüm əhəmiyyət kəsb edir.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, eləcə də beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

NATO-nun Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dair mövqeyini yüksək qiymətləndirən general-polkovnik Zakir Həsənov Alyansın bundan sonra da bu istiqamətdə səylərini əsirgəməyəcəyinə əminliyini ifadə edib.

BMT Təhlükəsizlik Şurasının "Qadın, Sülh və Təhlükəsizlik" üzrə 1325 saylı Qətnaməsinin müzakirəsi zamanı general-polkovnik Zakir Həsənov ölkəmizin də bu sənəddən irəli gələn tələblərin yerinə yetirilməsində maraqlı olduğunu qeyd edərək Azərbaycan Ordusunda on mindən artıq qadının xidmət etdiyini diqqətə çatdırıb. General-polkovnik Zakir Həsənov əlavə edib ki, yaxın zamanlarda Müdafiə nazirinin qadın hərbi qulluqçular və mülki işçilərin problemlərinin həlli üzrə referenti vəzifəsinin təsis edilməsi nəzərdə tutulur.

Azərbaycanın bu məsələdə mövqeyinin təqdirəlayiq olduğunu qeyd edən xanım R.Qotemöller ölkəmizin NATO-nun etibarlı tərəfdaşı olduğunu, terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına, o cümlədən sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri yüksək qiymətləndirib və Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycanın NATO ilə "Sülh naminə tərəfdaşlıq" və digər proqramlar çərçivəsində əməkdaşlıq məsələləri, həyata keçirilən layihələr, əlaqələrimizin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Azərbaycan Müdafiə Nazirliyi Rusiya tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyquya başsağlı ünvanlayıb.

Başsağlığında deyilir: "Suriyada vurulmuş İl-20 təyyarəsinin ekipajının faciəvi şəkildə həlak olması barədə xəbər məni dərindən sarsıtdı.

Azərbaycan Ordusunun şəxsi heyəti adından və şəxsən öz adımdan həlak olanların ailələrinə, doğmalarına və yaxınlarına dərin hüznlə baş sağlığı verirəm. Baş vermiş faciədən Sizinlə birlikdə kədərlənirik".

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***21 sentyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 88 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şıxlar, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Nümunəvi xidmət*

## "Qəhrəmanların döyüş yolu örnəkdir"



Zəngin təbii sərvətlərə sahib olan Vətənimiz dəfələrlə fitnəkar qonşularımızın hücumuna məruz qalıb. Ancaq böyüyüb başa çatdığı yerlərə bağlı olan igidlərimiz qəsbkarların işğalçı siyasətinə baş əyməyib, yurdumuzun azadlığı uğrunda mübarizə aparıblar. Doğma yurdumuzun hər bir qarış torpağı uğrunda minlərlə oğul və qızlarımız göz qırpmadan canlarından keçiblər. Döyüşlərdə mənfur düşmənə ağır zərbə vuran Mübariz, Rauf, Fərid, Mahir.... kimi oğullarımız öz qəhrəmanlıqları ilə gənclərimizə bariz nümunədir. Onların göstərdikləri qəhrəmanlıqlar hər bir Azərbaycan əsgərini yağıların üzərinə döyüşə ruhlandırır. Bu gün də ordumuzun sıralarında Vətənini sevən cəsur və mərd oğullarımızın sayı az deyil. Belə vətənpərvər oğullarımızdan biri ilə növbəti ezamiyyətimiz zamanı tanış olduq. O, hərbi xidmətə Sabunçu rayonundan çağırılan əsgər Elməddin Mehdiyevdir.

İgid əsgərimizi xarakterizə edən taqım komandiri leytenant Mirzağa Əliyev bildirdi ki, xidmətə gəldiyi ilk gündən özünü Vətənini sevən və Vətəninə sadiq bir əsgər kimi göstərib. "Əsgər Elməddin Mehdiyev xidmətə başladığı gündən öz nizam-intizamı, cəsarəti, verilən tapşırıqları vaxtlı-vaxtında və dəqiq yerinə yetirməsi ilə digərlərindən seçilir. O, keçirilən məşğələlərdə xüsusi fəallıq nümayiş etdirir. Manqada olan bütün silahların taktiki-texniki xassələrini öyrənməyə və onlardan düzgün şəkildə atışlar aparmağa can atır. Döyüş növbətçiliyini düzgün təşkil etdiyinə görə dəfələrlə mükafatlandırılıb. Onu da qeyd edim ki, əsgər Mehdiyev qısa müddət ərzində komandirlərin rəğbətini, əsgər yoldaşlarının hörmətini qazanıb".

İlk döyüş növbətçiliyindən söz açan əsgərimiz bildirdi ki, həmin gün heç vaxt onun yadından çıxmayacaq: "Döyüş növbətçiliyinə ilk dəfə təyin olunduğum gün heç vaxt yadımdan çıxmaz. Vətənin keşiyində dayanan igid oğullarımızın sıralarında olduğumdan qürur hissi keçirirdim. Xidmət etdiyimiz bölmə düşmənlə təmas xəttindən uzaqda yerləşməsinə baxmayaraq hər an düşməni törətdikləri əməllərinə görə peşman etməyə hazırıq. Televiziya proqramlarında işğal olunmuş torpaqlarımızı, yurdlarından didərgin düşən vətəndaşlarımızı görəndə duyğulu hisslər keçirirəm. Sanki düşmən tapdağında olan torpaqlarımız bizi səsləyir".

Elməddin onu da qeyd etdi ki, Azərbaycan əsgəri yalnız bir şüar altında xidmətini təşkil edir - "Vətənə sevgi, düşmənə nifrət". "Vətənə məhəbbət insanın daxilindən gəlir. Uşaq vaxtlarından hər bir valideyn övladına Vətən torpaqlarının müqəddəs olduğunu öyrədir. Bu sevgi uşaq bağçasında, məktəbdə və nəhayət ordu sıralarında daha da qüvvətlənir. Vətənə sevgi əsgər yoldaşları arasında olan güvənlə birləşərək məğlubedilməz qüvvəyə çevrilir. Komandirlərimi və əsgər yoldaşlarımı özümə qardaş bilirəm. Müharibə şəraitində olduğumuz üçün hər an düşmənin təxribatları ilə üzləşə bilərik. Bu zaman mənimlə



çiyin-çiyinə silah qardaşlarım vuruşacaqlar. Hər birimiz Vətənimizin müdafiəsində şəxsi məsuliyyət daşıdığımızı dərk edirik və bu hiss bizi bir-birimizə daha da yaxınlaşdırır. Qəhrəmanların döyüş yolu bizə örnəkdir".

- Ali Baş Komandan cənab İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun biz əsgərlərə göstərdiyi diqqət və qayğı hər birimizi fərəhləndirir. Əsgər yataqxanamız, yeməkxanamız və digər şəraitimiz müasir standartlara cavab verir. Komandirlərimiz bizim istirahətimizə xüsusi diqqət ayırırlar. Bölmədə asudə vaxtımız maraqlı keçir. Tez-tez maariflendirici yarışlar və viktorinalar, musiqi dəqiqələri keçirilir, - bu sözləri Vətənin müdafiəçisi əsgərlərimiz üçün yaradılan şərait haqqında söylədi.

**Baş leytenant Ruslan HƏSƏNZADƏ, "Azərbaycan Ordusu", fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

*Döyüş hazırlığı*

# Vətənpərvər ruhlu şəxsi heyət Vətəni qorumağa qadirdi

*Bu gün döyüş hazırlığı səviyyəsi durmadan yüksələn, şəxsi heyəti müasir silah və texnika ilə təchiz edilən Azərbaycan Ordusunda günün tələblərinə, döyüş şəraitinə uyğun olaraq təlimlər və müxtəlif tip yarışlar həyata keçirilir. Keçirilən təlimlər, yarışlar və digər tədbirlər zabit və əsgərlərimizin müasir döyüşün ən mürəkkəb tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduqlarını, döyüş qabiliyyətlərini və peşəkarlıqlarını, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarıqlarını əhəmiyyətli dərəcədə artırdıqlarını göstərir.*



Bu günlərdə 2018-ci ilin döyüş hazırlığı planına əsasən, "Azərbaycan Ordusunda ən yaxşı özüyeriyən artilleriya divizionu" adı uğrunda yarış keçirilib.

Keçirilən yarışın nəticələrini öyrənmək və şəxsi heyətin təəssüratlarını bölüşmək məqsədilə hərbi hissələrimizdən birində olduq. Mayor Azad Cəfərov yarış haqqında təəssüratlarını bizimlə bölüşərək qeyd etdi ki, Müdafiə Nazirliyinin müvafiq idarələrinin nümayəndələri və hərbi hissələrin rəhbərliyi tərəfindən izlənilən yarış iki mərhələdə həyata keçirilib.



"Ortaya qoyulan zəhmətin nəticəsində şəxsi heyətimiz "Azərbaycan Ordusunda ən yaxşı özüyeriyən artilleriya divizionu" adı uğrunda keçirilən yarışda birinciliyə nail olub. Uğurun əldə edilməsində Ali Baş Komandanımız tərəfindən göstərilən diqqət və qayğını, qoşunlarımızın maddi-texniki təminatının yüksəlməsini xüsusilə qeyd etmək lazımdır. Şəxsi heyətin döyüş, fiziki və mənəvi-psixoloji hazırlığı xüsusi əhəmiyyətə malik olduğundan Müdafiə Nazirliyinin rəhbərliyi bu məsələni daim diqqət mərkəzində saxlayır. Ən vacibi odur ki, şəxsi heyət bu yarışlarda iştirak etməklə döyüş qabiliyyətini, hərbi təcrübəsini təkmilləşdirir, müasir silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olur, eyni zamanda silahlardan istifadə qaydalarını öyənmək imkanı əldə edir", - deyə zabit bildirdi.

Zabitlə birgə imitasiya edilmiş yarış prosesini izləyirik. Yarışın birinci mərhələsində zabit heyətinin nəzəri bilik səviyyəsini yoxlamaq və qiymətləndirmək məqsədilə kompüterli artilleriya sinfində onların praktiki olaraq məqbulları qəbul edildi. Zabitlər 4 istiqamət - atış və atəşin idarə edilməsi, artilleriyanın hazırlıq kursu, atəş bölmələrinin döyüş işinə dair təlimat və rəhbəredici sənədlər üzrə yoxlanıldıqdan sonra onların yarış barədə təəssüratlarını öyrənirik.

"Divizionumuzun keçirilən yarışda qalib olması təsadüfi deyil", - deyə kapitan Rəşad Məmmədov bizimlə söhbətə başlayır. Bir zabit və vətəndaş kimi 20 faiz torpaqlarımızın işğal altında olması, dövlətimizin ərazi bütövlüyünün pozulması ilə barışa bilmərik. Ona görə də yüksək səviyyədə hazırlıqlı olmağımız vacib və labüddür.

Baş leytenant Xaliq Əliyev bildirdi ki, divizionumuzun şəxsi heyəti, o cümlədən zabitlərimiz yüksək döyüş bacarığı ilə fərqlənir. Təsadüfi deyil ki, divizonumuzda xidmət edən zabitlərin əksəriyyəti Ali Hərbi Məktəbi fərqlənmə ilə bitirən zabitlərdir. Onun nəticəsidir ki, şəxsi heyətimiz döyüş hazırlığı dərslərində və praktiki məşğələlərdə qazandıqları bilik və bacarıqlarını ortaya qoydular və bu il də keçirilən yarışın birincisi oldular.

Leytenant Oruc Məmmədov isə qeyd etdi ki, yarışın qalibi olmaq üçün döyüş hazırlığı ilə paralel, şəxsi heyətin mənəvi-psixoloji durumu da diqqətdə saxlanılır. Təsdiq olunub ki, vətənpərvərlik ruhunda tərbiyə olunan şəxsi heyət Vətəni qorumağa qadirdi. Şəxsi heyətimiz nəinki Vətəni qorumağa, həmçinin aprel döyüşlərini, Günnüt zəfərini yenidən təkrarlamağa hazırdı.

Şəxsi heyətə sıra baxışının keçirilməsi və tədris-material bazasının yoxlanılması ilə ikinci mərhələ başlayır. Bunun üçün divizionun texnikası atəş mövqeyi rayonundan 1-2 km məsafədə kolona düzülür, şəxsi heyət sıraya cəlb edilir və tədris-material bazası təqdim olunur. Tədris-material bazası, şəxsi heyətin ekipirovkası yoxlanıldıqdan və qeydlər aparıldıqdan sonra özüyeriyən artilleriya divizion komandirinin marşa döyüş əmri şəxsi heyətə çatdırılır və şəxsi heyət təhlükəsizlik qaydaları ilə təlimatlandırılır. Müvafiq sənədlər yoxlandıqdan sonra divizion komandiri tərəfindən atəş mövqeyi və komanda müşahidə məntəqələri rayonlarına marş keçirməyə icazə verilir. Marşın həyata keçirilməsi və saxlancdan döyüş tapşırığı yerinə yetiriləcək rayona hərəkət etmək üçün şəxsi heyət düzülür. Divizion komandiri tərəfindən "daimi dislokasiya mövqeyini tərk etməyə başlayın" komandasını alan şəxsi heyət maşınlarda öz yerini tutur və marşın icra olunmasına başlayır.

"Döyüşə!" komandası ilə yarışın praktiki mərhələsi başlanır. Bu komandadan sonra şəxsi heyət atəş mövqeyində və komanda müşahidə məntəqəsində öz yerini tutur və döyüş hazırlığı normativlərini yerinə yetirməyə başlayır.

"Bundan sonra planlı hədəflərə atəş tapşırıqları yerinə yetiriləcək", - deyə leytenant Şəhriyar Fərəcov söhbətə başlayır. Şəxsi heyət divizion komandirinin planlı hədəflərə atəş tapşırıqlarının yerinə yetirilməsi əmrini gözləyir. Bu əmr yerinə yetirildikdən sonra plandankənar hədəflərə də atəş tapşırığı yerinə yetiriləcək. Zabit ilə birlikdə planlı və plandankənar atəş tapşırıqlarının yerinə yetirilməsi prosesini izləyirik. Arada yaranan fasilədən istifadə edərək şəxsi heyətlə də söhbətləşirik.

"Gördüyünüz nailiyyət şəxsi heyətimizin döyüş hazırlığı məşğələlərində ixtisas, taktiki və atış bacarıqlarını daim artırmasının nəticəsidir", - deyə leytenant Şəhriyar Fərəcov şəxsi heyətlə başlanan söhbətə vəsilə olur. - Şəxsi heyətimiz bu məşğələlərdə gördüyünüz texnikanın taktiki-texniki xüsusiyyətlərini öyrənir, nəzəriyyəni praktikada həyata keçirməklə təcrübəsini artırır. Gördüyünüz texnika ən müasir texnologiya ilə, avtomatlaşdırılmış idarəetmə sistemi ilə təchiz edilib. Texnika imkan verir ki, istənilən planlı və plandankənar hədəfi 30-40 saniyə ərzində məhv edək. Hazırlıqlı olmayan, texnikanı mükəmməl bilməyən əsgərlə bu nailiyyət əldə oluna bilməz. Bu gün şəxsi heyətimizin döyüş ruhu yüksəkdir və onlar qarşılarına qoyulan tapşırıqları layiqincə yerinə yetirməyə hər zaman hazırdırlar.

Gizir Qurban Qurbanov zabitin sözünə qüvvət olaraq bildirir ki, istənilən hərbi qulluqçu ümumi uğurumuz naminə bilik və bacarığını əsirgəmir. Özünüz də gördünüz ki, vahid mexanizm kimi hərəkət etməyimizin, əldə etdiyimiz biliklərin sayəsində nəzərdə tutulan normativləri vaxtında və yüksək dəqiqliklə həyata keçiririk. İndiki döyüşlərdə əsas güc artilleriyanın üzərinə düşdüyündən ona görə də bu yarışların və təlimlərin mütəmadi keçirilməsini istəyirik. Bu yarışlar və təlimlər imkan verir ki, Azərbaycan zabiti, giziri, əsgəri döyüşü, gülləni, mərmini yaxından hiss etsin. Keçirilən yarışların böyük əhəmiyyətlərindən biri də ondan ibarətdir ki, şəxsi heyətə özünəinam aşılayır. Şəxsi heyətimiz yaxşı başa düşür ki, təlim meydanında çəkilən zəhmət döyüş meydanında qələbəyə nail olmağa imkan yaradır.

Operator-tuşlayıcı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Zaur Adiloğlu isə bildirdi ki, burada qazandığımız nailiyyətləri real döyüş meydanında təkrarlamaq arzusundayıq. Aprel döyüşlərində oğullarımızın nümayiş etdirdiyi qəhrəmanlıqları bir daha təkrar etmək, xalqımızı sevincə qərq etmək, bayrağımızı doğma torpaqlarımızda dalğalandırmaq istəyindəyik. Aprel döyüşləri sübut etdi ki, Azərbaycan Ordusunun gücü, qüdrəti, şəxsi heyətimizin peşəkarlığı ən yüksək səviyyədədir. Ona görə də yüksək peşəkarlıq, ciddi nizam-intizam, lazımi səviyyədə təchizat, yetərli maddi-texniki baza, şəxsi heyətin ruh yüksəkliyi, sağlam zabit - əsgər münasibəti, hərbi və əməliyyat tapşırıqlarının yerinə yetirilməsində elmi və praktiki təcrübə kimi halları ordumuzun ünvanına qürur hissi ilə ünvanlaya bilərik.

Mərmiçi əsgər Anar Qaracayev söhbət zamanı bu gün Azərbaycan Ordusunda xidmət etdiyindən və xalqımıza məxsus olan zəngin hərbi ənənələri böyük məsuliyyət və şərəflə davam etdirdiyindən qürur duyduğunu bildirdi. "Orduya gələn zaman artilleriya haqqında heç bir anlayışım yox idi. Təcrübəli zabitlərimizin, gizirlərimizin və əsgərlərimizin sayəsində texnikanı öyrəndik. İndi sərbəst şəkildə hədəfləri müəyyən etməyi, verilən koordinatlar əsasında planlı və plandankənar hədəfləri, obyektləri, məskunlaşma mərkəzlərini atəş altında saxlamağı bacarıq."

"Bu gün əlimizdə olan müasir texnologiya ilə, avtomatlaşdırılmış idarəetmə sistemi ilə təchiz edilən texnika ilə düşməni tamamilə məhv etməyə qadirik", - deyə əsgər Məhəbbət Əliyev bildirir. Atıcı olmağıma baxmayaraq, texnikanı idarə etməkdən tutmuş, koordinatları müəyyən etməyə qədər hər bir işi bilirəm. Sevinirəm ki, 15 aylıq xidmətimi boşa verməmişəm. İndi isə biz öz növbəmizdə yeni gələn əsgərlərin öyrədilməsində yardımçı olmağa çalışırıq. Bilirik ki, Azərbaycan əsgəri istənilən situasiyaya, istənilən döyüş məqamına hazır olmalıdı. Biz həmin döyüş anını yaşamağa hər zaman hazırıq.

Sürücü-mexanik müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Seymur Əliyev isə qeyd etdi ki, texnikanı işə salanda, ancaq bir məsələ haqqında düşünürəm: "Gözlədiyimiz döyüş məqamı nə vaxt gəlib çatacaq. Nə vaxt idarə etdiyim bu texnikanın təkərləri haqqımız olan o torpaqlara dəyəcək. İnanmazsınız, indi söhbətləşirik, fikrim o yerlərə gedir... Hər gördüyümü bağrıma basıram... Hər bir hərbi qulluqçu kimi Ali Baş Komandanımızın əmrini gözləyirəm..."



İmitasiya edilmiş yarış prosesini izlədikdən və şəxsi heyəti dinlədikdən sonra tam əminliklə deməyə əsas var ki, bundan sonra da nəzərdə tutulan bütün işlər, qarşıya qoyulan məqsədlər uğurla yerinə yetiriləcək və Azərbaycan Ordusu torpaqlarımızın hər zaman toxunulmazlıq qarantı olacaq.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

*“Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır”*

# “Ali Baş Komandanın adından verilən hədiyyəyə görə qürur duyuruq”

*Son illər ən yeni silah və texnika ilə təmin olunan Azərbaycan Ordusu regionun ən güclü ordusuna çevrilib. Keçirilən irimiqyaslı təlimlər, düşmən təxribatlarının qarşısının alınması zamanı qazanılan qələbələr bunun bariz nümunəsidir. Danılmaz faktdır ki, ordunun döyüş qabiliyyəti, həm də şəxsi heyətin döyüş ruhundan bilavasitə asılıdır. Müasir silahlardan yüksək səviyyədə istifadə etməyi bacaran hərbçilərə malik ordu ən güclü ordudur. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "Ən müasir silahı da istifadə edən əsgərdir" sözləri hər bir hərbi qulluqçuya göstərilən etimad deməkdir.*





Torpaqlarımızın keşiyində dayanan hərbi qulluqçular da Müdafiə nazirinin bu sözlərini özlərinə deviz bilərək, bacarıqlı, vətənpərvər hərbçilər kimi yetişmək üçün çalışır, nümunəvi xidmət etməyə can atırlar. Ali Baş Komandanın, Müdafiə nazirinin hər bir zabitə, gizirə, əsgərə yüksək diqqət və qayğı göstərməsinin nəticəsidir ki, bu gün ordu sıralarında vəzifələrinin öhdəsindən bacarıqla gələn vətənpərvər oğullar xidmət edirlər. Hərbi formanı geyib, hərbçi adını daşımaqla qürur duyurlar. Ürəklərində sonsuz Vətən sevgisi ilə xidmət edirlər. Hər birinin tək amalı torpaqlarımızı işğaldan azad etməkdir. Bunun üçün onlar xidmətə məsuliyyətlə yanaşır, rəhbərlik tərəfindən qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Öz xidmətləri ilə sübut edirlər ki, Azərbaycan Ordusu yenilməzdir, işğal altında olan torpaqlarımızı müharibə yolu ilə azad etməyə hər an hazırdırlar.

Mütəmadi olaraq cəbhə bölgələrində şəxsi heyətlə görüşüb, onların qayğıları ilə maraqlanan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti növbəti dəfə "N" hərbi hissəsinin yüksək dağ zirvələrində düşmənlə təmas xəttində yerləşən bölməsinin şəxsi heyəti ilə görüşüb. Hərbi xidmətin və döyüş növbətçiliyinin təşkilini yoxlayan Müdafiə naziri xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya Ali Baş Komandan adından qiymətli hədiyyələr təqdim edib.

Nümunəvi xidmətlərinə görə təltif olunan hərbi qulluqçularla həmsöhbət olub, onların düşüncələrini qələmə alırıq. Onlarla söhbət zamanı hər biri vurğulayır ki, Vətən bizlərə əmanətdir, biz Vətən keçikçiləriyik, çətinlik bilmədən üzərimizə düşən müqəddəs vəzifəni layiqincə yerinə yetirmək üçün çalışırıq.

İlk həmsöhbətim **kapitan Rahib Babayevdir.** Naxçıvan şəhərində doğulub boya-başa çatan, Heydər Əliyev adına Hərbi Liseyin və Ali Hərbi məktəbin məzunu olan zabit bu görüşün bölmənin hər bir şəxsi heyəti üçün sevincli və unudulmaz gün olduğunu bildirir.

- Bu bölgə uca dağlar diyarı kimi tanınır və mürəkkəb iqlim şəraitinə malikdir. Burada xidmət edən hərbi qulluqçular üçün ən önəmlisi yüksək vətənpərvərlik ruhudur. Müdafiə nazirimizin buraya gəlib bizimlə görüşməsi, hədiyyələr təqdim etməsi bizi çox sevindirdi. Əsgərlərimizin döyüş, mənəvi-psixoloji hazırlığına müsbət təsir göstərdi. Hər bir əsgərlə şəxsən görüşən Müdafiə naziri onların döyüş və mənəvi-psixoloji hazırlığı, sosial-məişət şəraiti ilə maraqlanaraq, qış mövsümünə zəruri hazırlıq işlərinin vaxtında və keyfiyyətlə icra edilməsi barədə konkret tap-



şırıqlarını verdi. Təltif edilənlərdən biri də mən oldum. Bir zabit kimi Ali Baş Komandan adından və Müdafiə naziri tərəfindən qiymətli hədiyyə almaq qürurludur və heç bir zaman yaddaşımdan silinməyəcək. Bu günü hər zaman sevinclə xatırlayacaq, etimadı doğrultmaq üçün xidmətimi daha da uğurlu təşkil edəcəm.

Daha bir Vətən müdafiəçisi **baş leytenant Fuad Hüseynov** fikirlərini bölüşür. Əslən Göy-Göl rayonundan olan zabit Bakı Dövlət Universitetinin məzunudur. Bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsini icra edən zabit bildirir ki, torpaqlarımızın bir hissəsinin işğal altında olduğu bir zamanda mövqelərimizi göz bəbəyi kimi qorumaq hər birimizin borcudur.

"Cənab nazirin bizə olan yüksək etimadını doğrultmaq üçün hər birimiz məsuliyyətlə xidmətimizi davam etdirəcəyik. Bu gün Vətənimiz bizlərə əmanətdir. Xalq bizə inanır, arxalanır, Ali Baş Komandanımız və Müdafiə nazirimiz bizə yüksək etimad göstərir. Daim qayğılarımızla maraqlanır, sosial şəraitimizin yaxşılaşdırılması istiqamətində uğurlu islahatlar aparırlar. Bölməmizin minlərlə kilometr yüksəklikdə yerləşməsinə baxmayaraq heç nədən korluq çəkmirik. Xidmətimizi uğurla yerinə yetirmək üçün hər cür şərait yaradılıb. Biz də qarşımıza qoyulan tapşırıqların öhdəsindən gəlmək üçün var qüvvəmizlə çalışırıq. Əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlıqlarının artırılması istiqamətində daim işlər aparırıq. Onlarla mütəmadi fərdi söhbətlər edir, qayğıları ilə maraqlanırıq. Ölkə və ordu rəhbərliyinə təşəkkürlərimi bildirirəm ki, bizə yüksək diqqət göstərir, tez-tez görüşümüzə gəlirlər. Sağ olsunlar ki, xidmətimizlə yaxından maraqlanır, yüksək qiymətləndirirlər. Belə görüşlər hər birimizə ruh yüksəkliyi aşılayır. Müdafiə nazirinin əlimi sıxıb, mənə hədiyyə təqdim etməsi, bizimlə səmimi söhbəti xidmətin ən yadda qalan günü kimi yaddaşımıza həkk olundu. Həmçinin cənab nazirin bu addımı biz zabitlər üçün əsl komandir nümunəsidir. Bir zabit kimi söz verirəm ki, tabeliyimdə olan şəxsi heyətin döyüş bacarığının, mənəvi-psixoloji hazırlığının artırılması istiqamətində bütün bacarıqlarımı səfərbər edəcəm. Şəxsi heyətimizlə birlikdə Ali Baş Komandanın döyüş əmrinə daim hazırıq.

Növbəti həmsöhbətim isə **çavuş Rəşad Hacıyev** olur. O da Müdafiə naziri tərəfindən təltif olunmağın qürurunu yaşayanlardandı. "Mən də digər silahdaşlarım kimi bu günü heç zaman unutmayacam. Həmin anın sevincini, həyəcanını bu dəqiqə də yaşayıram. Cənab nazir ixtisasıma görə mənə bir-iki sual da ünvanladı. Oriyentirlərə görə hədəfə qədər məsafənin təyin olunması və məhv edilməsi haqqında suallarını cavablandırdım. Düşmənin görünən mövqelərini bir əmrlə darmadağın edə biləcəyimi bildirdim. Mənə qol saatı təqdim edib dedi ki, "bu saata hər baxanda məni xatırla, sizə yüksək etimad göstərildiyini unutma və xidmətində daha da möhkəm



ol, hədəfləri daha dəqiq vur!". Bölməmizin uca dağ zirvəsində yerləşməsinə baxmayaraq Müdafiə nazirinin gəlib bizimlə görüşməsi, xidmətimizlə, şəraitimizlə yaxından maraqlanması hər birimiz üçün böyük stimuldur. Bu cənab nazirimizin bizlərə olan sevgisinin, rəğbətinin, diqqətinin bir daha bariz nümunəsidir. Biz də bunların qarşılığında xidmətimizdə daha möhkəm olacaq, mövqelərimizi daha inamla qoruyacağıq", - dedi çavuş R.Hacıyev.

"Qarabağa üçrəngli bayrağımızı sancmağa hər an hazırıq", - deyə hərbi xidmətə Ağcabədi rayonundan çağırılan **əsgər Əlyar Məmmədov** bildirir. - Torpaqlarımızın keşiyində dayanmaq, Vətənə nümunəvi xidmət etmək biz gənclərin ən müqəddəs vəzifəsidir. Bu vəzifənin vacibliyini yaxşı başa düşür, var qüvvəmizlə çalışırıq ki, bizlərə olan etimadı doğruldaq. Cənab nazirin bura gələrək bizimlə görüşməsi, xidmətimizi yüksək dərəcədə qiymətləndirərək hədiyyə verməsi bizlərə unudulmaz sevinc hissləri bəxş etdi. Ali Baş Komandanın adından, Müdafiə nazirindən mükafat almaq mənim üçün ən qürurlu andır. Xidmətimin ən yadda qalan günüdür. Mən də öz adımdan və bütün əsgər yoldaşlarım adından söz verirəm ki, döyüş əmri alan kimi düşmən üzərində inamlı qələbə qazanacağıq. Döyüş meydanında şücaət göstərəcək, mərdliklə vuruşacağıq. Bir addım da geri çəkilməyəcəyik. Ali Baş Komandanımıza, xalqımıza Böyük Qələbəni hədiyyə edəcəyik.

Vətənin mərd oğulları ilə həmsöhbət olmaqdan mən də qürurlanıram. Bir daha şahidi oluram ki, istənilən iqlim şəraitində torpaqlarımız inamla qorunur. Ordu sıralarında xidmət edən hər bir hərbi qulluqçu mərdliklə xidmət edir, döyüş postlarında ayıq-sayıq dayanır. Onların hər biri məsuliyyətli, nizam-intizamlıdır, döyüş növbətçiliyini müvəffəqiyyətlə aparır. Müdafiə nazirinin mütəmadi olaraq onlarla görüşməsi, qayğıları ilə maraqlanması isə hər birinin ruh yüksəkliyini, döyüş qabiliyyətini daha da artırır. "Vətən, övladlarının çiyinləri üstündə yüksəlir" deyiblər. Ordu sıralarında xidmət edən belə vətənpərvər oğulları tanıdıqca bu kəlamın qüdrətini daha dərindən başa düşürəm. Bir daha əmin oluram ki, Vətənimiz etibarlı əllərdədir.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Hərbi əmlakı qorumaq hərbi qulluqçunun borcudur.**

**2. Əsgər və çavuşların dövlətə vurulan ziyana görə maddi məsuliyyəti.**

**3. Hərbi qulluqçuların dövlətə vurduqları maddi ziyana görə cinayət məsuliyyəti.**

**Mövzu:** Hərbi əmlakı qorumaq hərbi qulluqçunun borcudur. Əsgər və çavuşların dövlətə vurulan ziyana görə maddi məsuliyyəti.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin nizamnamələrindən, Azərbaycan Respublikası Cinayət Məcəlləsindən və "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında" Əsasnamədən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *Hərbi əmlakı qorumaq hərbi qulluqçunun borcudur*

Hərbi əmlak nədir? Hərbi əmlak dedikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qoşun, birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələri, idarə və təşkilatların sərəncamında olan silahların, döyüş texnikalarının və başqa texnikaların bütün növləri, döyüş sursatı, yanacaq, ərzaq, əşya, mühəndis, kimya vasitələri, evlər, digər maddi və pul vəsaitləri başa düşülür.

Ölkə rəhbərliyi Azərbaycan Ordusunun döyüş qüdrətinin yüksəldilməsi üçün ardıcıl iş aparır. Döyüş hazırlığı prosesinin keyfiyyətli və səmərəli təşkili üçün Azərbaycan Ordusu lazımi maddi və texniki vəsaitlərlə təmin olunur. Ölkə rəhbərliyinin bu qayğısı sayəsində Azərbaycan Ordusunun hissələri öz döyüş qabiliyyətini artırır.

Ordu quruculuğunu daim öz nəzarəti altında saxlamış, müasir Azərbaycan dövlətçiliyinin və milli hərbi qüdrətimizin yaradıcısı ümummilli lider Heydər Əliyev Silahlı Qüvvələrin inkişafı və maddi bazanın möhkəmləndirilməsi məqsədilə 2002-ci il avqustun 17-də "Silahlı Qüvvələrə yardım fondunun yaradılması haqqında" fərman imzalamışdır.

Bu gün Azərbaycan Ordusunda olan texnikalar, silah və sursatlar döyüş qabiliyyətini yüksək səviyyədə saxlamağa imkan verir. Ömrünü Azərbaycanın dövlət müstəqilliyinin və onun beynəlxalq nüfuzunun yüksəldilməsinə sərf etmiş ümummilli lider Heydər Əliyevin ölkəmizin müdafiə potensialı üzrə götürdüyü strateji xətti qətiyyətlə və uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev demişdir: "Ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Artıq bu istiqamətdə çox böyük dəyişikliklər mövcuddur və bu proses davam edəcəkdir. Azərbaycanın müdafiə potensialı gücləndiriləcəkdir. Bu, bizim strateji xəttimizdir".

Hərbi xidmətə çağırılan hər bir vətəndaş xidməti vəzifələrini yerinə yetirmək üçün dövlət tərəfindən silah və texnika ilə, eləcə də öz şəxsi tələbatlarını ödəmək üçün müəyyən olunmuş normalarda ərzaq, əşya və pul təminatları ilə təmin olunur. Bu isə hərbi qulluqçudan ona həvalə olunmuş maddi vəsaitlərə qayğı ilə yanaşmağı, onları qorumağı və israfçılığa yol verməməyi tələb edir. Hərbi qulluqçuların maddi məsuliyyəti hərbi qanunvericilik aktları ilə müəyyən edilir. Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsində əsgərlərdən (matroslardan) tələb edilir:

- əsgər (matros) sülh və müharibə dövrlərində ona tapşırılan vəzifələrin və tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsi ilə yanaşı, öz silahının, eləcə də ona həvalə olunan döyüş texnikası və digər texnikanın vəziyyətinə cavabdehdir;
- dövlət əmlakını qorumaq, geyimi və ayaqqabını səliqə ilə geymək, onları vaxtında təmir etmək, təmizləmək və göstərilmiş yerdə saxlamaq əsgərin (matrosun) vəzifə borcudur.

### *Əsgər və çavuşların dövlətə vurulan ziyana görə maddi məsuliyyəti*

Azərbaycan Respublikasının 10 yanvar 1995-ci il tarixli Qanunu ilə "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında" Əsasnamə təsdiq edilmişdir. Bu Əsasnaməyə 4 noyabr 1997-ci il, 5 mart 2004-cü il, 21 dekabr 2010-cu il və 17 may 2011-ci il tarixlərdə bir sıra əlavə və dəyişikliklər edilmişdir. Əsasnamə hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin dövlətə vurduqları ziyana görə maddi məsuliyyətinin əsaslarını, vurulan ziyanın miqdarının müəyyən edilməsinin və ödənilməsinin qaydalarını tənzimləyir.

Hərbi qulluqçular hərbi nizamnamələrlə, əmrlərlə və digər aktlarla nəzərdə tutulan vəzifə borclarını yerinə yetirərkən dövlətə vurduqları ziyana görə təqsirli olduqda bu Əsasnaməyə uyğun olaraq maddi məsuliyyət daşıyırlar.

Hərbi qulluqçular vəzifə borclarını yerinə yetirmədikləri zaman vurduqları ziyana görə ümummülki qaydada maddi məsuliyyət daşıyırlar.

Hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər komandirin (rəisin) əmrini vicdanla yerinə yetirmələri və ya konkret şəraitdə haqlı xidməti risk nəticəsində, yaxud hüquqi hərəkətlər nəticəsində dövlətə vurduqları ziyana görə maddi məsuliyyət daşımırlar.

Hərbi qulluqçular və toplanışa çağırılmış vəzifəlilər tərəfindən dövlətə vurulmuş ziyan, onların həmin ziyana səbəb olmuş hərəkətlərinə (hərəkətsizliyinə) görə intizam və ya xud cinayət məsuliyyətinə cəlb edilib-edilməməsindən asılı olmayaraq ödənilir.

Hərbi əmlakın çatışmazlığının və ya itirilməsinin aşkarlanması zamanı mütləq cavabdeh şəxsin iştirakı ilə inventarlaşma keçirilərək akt tərtib olunur, çatışmayan əmlakın miqdarı və faktiki dəyəri, əmlaka cavabdehliyin kimə həvalə olunması barədə arayış araşdırma materiallarına əlavə olunur. Dəymiş ziyanın faktiki məbləği barədə arayış hərbi əmlakı zədələmə və ya məhv etməyə dair araşdırmalarda olur.

Hərbi qulluqçular öz təqsirləri üzündən dövlətə vurduqları zərərin tam həcmi məbləğində maddi məsuliyyət daşıyırlar:

- hərbi əmlakın qəsdən məhv edilməsi, zədələnməsi, korlanması, oğurlanması, qanunsuz sərf edilməsi və ya cinayət məsuliyyətinə səbəb olub-olmamasından asılı olmayaraq qəsdən edilən başqa hərəkətlərlə zərər vurulduqda;
- naryad və başqa sənədlərlə faktiki görülməmiş işlər görülmüş işlər kimi göstərildikdə, hesabat rəqəmləri təhrif edildikdə və dövlət başqa şəkildə aldadıldıqda;
- zərər sərxoş vəziyyətdə olan şəxs tərəfindən vurulduqda;
- zərər cinayət məsuliyyətinə cəlb olunan şəxs tərəfindən vurulduqda.

Əgər maddi məsuliyyətə cəlb olunmuş hərbi qulluqçu, toplanışa çağırılmış hərbi vəzifəli dövlətə vurduğu zərəri ehtiyata və ya istefaya buraxıldığı və ya toplanışın qurtardığı gündək ödəməyibsə, onun borcu yaşadığı yerin icra məmuru tərəfindən mübahisəsiz qaydada, buraxılmış hərbi qulluqçunun və ya toplanışa çağırılmış hərbi vəzifəlinin yaşayış (iş) yerinə hərbi hissə, müəssisə, hərbi məktəb, idarə və təşkilat komandirinin (rəisinin) göndərdiyi notariat işlərini yerinə yetirən orqanların icra qeydi əsasında tutulur.

Təqsirli şəxsdən tutulması mümkün olan məbləğdən artıq zərərin miqdarı komandirin (rəisin) qərarı ilə ona verilmiş hüquqlar həddində dövlət hesabına keçirilir.

Bu Əsasnamənin dəqiq və eyni cür yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının Baş prokuroru və ona tabe olan hərbi prokurorlar tərəfindən həyata keçirilir.

### *Hərbi qulluqçuların dövlətə vurduqları maddi ziyana görə cinayət məsuliyyəti*

Çağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn cinayətlər hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Hərbi xidmət əleyhinə olan cinayətlər" bölməsində hərbi qulluqçuların dövlətə vurduqları maddi ziyana görə cinayət məsuliyyəti müəyyən edilmişdir:

**Maddə 347.** Hərbi əmlakı itirmə.

Bu maddədə hərbi qulluqçulara xidməti istifadə üçün verilmiş silahın, döyüş sursatının, nəqliyyat vasitələrinin, texniki təchizat əşyalarının və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozma nəticəsində hərbi əmlakın itirilməsinə görə məsuliyyət nəzərdə tutulub. Belə əməllərə görə hərbi qulluqçu minimum əmək haqqının iki yüz mislinədək cərimə və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Maddə 348.** Hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə.

Belə əməllər minimum əmək haqqının beş yüz mislinədək cərimə və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Eyni əməl müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Maddə 349.** Hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə.

Silahı, döyüş sursatını, hərbi texnikanı və ya sair əmlakı qəsdən məhv etmə və ya zədələmə, digər cinayətin əlamətləri olmadıqda minimum əmək haqqının beş yüz mislinədək miqdarda və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya dörd ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Bu əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə, ağır nəticələrə səbəb olduqda, müharibə və ya döyüş şəraitində törədildikdə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Hər bir hərbi hissənin öz təyinatına görə müvafiq tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər texnika və silahlara, sursata malikdirlər. İctimai-siyasi hazırlıq sistemində öyrənilən bu mövzu hərbi qulluqçuları onlara həvalə olunmuş döyüş texnikasını, digər texnika və silahları, hərbi əmlakı qoruyub saxlamağa və ondan bacarıqla istifadə etməyə, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, ərazi bütövlüyünün bərpası və müstəqilliyimizin təmin olunmasında məsuliyyətlərini şüurlu dərk etməyə səfərbər etmək üçün planlaşdırılır və keçirilir.

*Qrup rəhbəri mövzunu yekunlaşdırarkən dinləyicilərə bir daha Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin aşağıdakı sözlərini xatırlatmalıdır: "Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".*

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Sloveniyada Mehdi Hüseynzadənin 100 illiyi ilə bağlı tədbirlər keçiriləcək



Prezident İlham Əliyevin Azərbaycan xalqının qəhrəman oğlu, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncamına uyğun olaraq, Sloveniyanın Lyublyana şəhərində anım tədbirləri keçiriləcək.

Azərbaycanın Ukraynadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, səfirliyin təşəbbüsü ilə Ukraynadan, Sloveniyadan və Azərbaycandan olan gənclərin birgə iştirakı ilə dekabrın 21-23 tarixlərində Lyublyana şəhərində "Mehdi Hüseynzadənin qəhrəmanlıq yolu ilə" şüarı altında layihə həyata keçiriləcək.

Layihənin keçirilməsində əsas məqsəd İkinci Dünya müharibəsi zamanı Azərbaycanın qəhrəman oğul və qızlarının keçmiş Sovet ittifaqı ölkələri ilə yanaşı, Yuqoslaviya torpaqlarının azad olunmasında göstərdikləri qəhrəmanlıqları Azərbaycan, Ukrayna və Sloveniya gənclərinə çatdırmaq, hər üç ölkənin gənclərini vətənpərvərlik duyğuları ətrafında birləşdirməklə yanaşı, Mehdi Hüseynzadənin timsalında Azərbaycan xalqının döyüşkənlik ruhunu, tolerantlıq və multikultural düşüncə tərzini nümayiş etdirməkdir.

Məlumata görə, 1941-1945-ci illərdə Yuqoslaviyanın alman faşizmindən azad olunmasında Azərbaycan və Ukraynanın qəhrəman oğullarının çiyin-çiyinə döyüşməsini, xüsusən də Mehdi Hüseynzadənin döyüşdüyü 9-cu korpusda çoxsaylı ukraynalıların olmasını nəzərə alan Ukraynanın Gənclər və İdman Nazirliyi də bu təşəbbüsə qoşularaq layihədə iştirakı nəzərdən keçirə biləcəklərini ifadə edib.

Dekabrın 22-də keçiriləcək yubiley tədbirləri çərçivəsində "Azərbaycan, Ukrayna və Balkan ölkələrinin müasir gəncliyinin yeni geosiyasi reallıqlar şəraitində təhdidlərə və çağırışlara baxışları" mövzusunda beynəlxalq konfransın da keçirilməsi nəzərdə tutulur. Tədbirə qatılacaq Azərbaycan və Ukraynanın aparıcı televiziya və KİV-ləri Mehdi Hüseynzadənin qəhrəmanlıq salnaməsini özündə əks etdirən reportaj və sənədli filmlər çəkməklə, əfsanəvi partizanın qəhrəmanlıqlarını geniş tamaşaçı auditoriyasına çatdıracaqlar. Tədbir çərçivəsində M.Hüseynzadə haqqında sloven, rus və Azərbaycan dillərində dərc olunmuş kitabın təqdimat mərasimi də olacaq. Tədbir iştirakçıları M.Hüseynzadənin qəbirüstü abidəsini, onun ev muzeyini və Maribo şəhərində ucaldılmış abidəsini ziyarət edəcəklər.

# Ermənistan ordusunda kriminal hadisələr

Bu günlərdə Ermənistanda baş verən intihar hadisəsi ictimaiyyət arasında böyük rezonans doğurub.

İşğalçı orduda baş alıb gedən özbaşınalıqlar və qanunsuzluqlar səbəbindən xidmətdən imtina etmək üçün ermənistanlı gənclər hər yola əl atırlar.

İşğal altında olan Dağlıq Qarabağda yerləşdirilən hərbi hissələrdən birində xidmət edəcəyini öyrənən Ermənistanın Ararat vilayətinin Nor Xarberd kəndinin 28 yaşlı sakini Arman.T adlı şəxs isə çıxış yolunu intiharda görüb.

Məlumatda bildirilir ki, 28 yaşlı Arman.T Artaşat magistralı yaxınlığında özünü ağacdan asaraq həyatına son qoyub.

Xəbərdə özünü öldürən Armanın cibindən məktub tapıldığı və orada intihara təşəbbüsün hərbi xidmətə Qarabağa göndərilməsinin səbəb olduğunun yazıldığı da bildirilir.

* * *

İşğal olunmuş Ağdərə rayonunun ərazisində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində nizamnamədən kənar münasibətlər zəminində daha bir insident baş verib.

Məlumatda deyilir ki, 15-ci bölükdə xidmət edən Tigran Avetisyan adlı hərbi qulluqçu kiçik komandirin qeyri-qanuni əmrini icra etməkdən imtina etdiyinə görə gecə saatlarında hərbçilər tərəfindən döyülüb.

Təhqirlərə məruz qalaraq vəhşicəsinə döyülən hərbi qulluqçu T.Avetisyan aldığı xəsarətlər səbəbindən tibb məntəqəsinə yerləşdirilib.

Hadisə ilə bağlı hərbi prokurorluqda cinayət işi açılıb. Fakt ictimaiyyətdən gizlədilsə də, istintaq aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Sülh - azadlıq, ədalət, bərabərlik...

Sülh - hər bir cəmiyyətin, bütövlükdə bəşəriyyətin arzuladığı dəyər...

Sülh dövlətlərin bir-biri ilə münasibətlərinin qeyri-zorakılıq şəraitində qurulması, bir-birinin milli maraqlarını uzlaşdırması deməkdir. Sülh şəraitini müharibə pozur. Sülhsüz nə ictimai, nə də şəxsi təhlükəsizlik mümkün deyil.

İnsanlar bəşəri rəmzə çevrilən sülhə can atır. Ona görə də dünya ölkələrinin yekdil qərarı ilə BMT 1981-ci il 21 sentyabrın Beynəlxalq Sülh Günü kimi qeyd olunması barədə qərar qəbul edib. Bu günün əhəmiyyəti zaman keçdikcə, münaqişə ocaqları alovlandıqca üzə çıxır.

Sülh bəşəriyyətin ehtiyac duyduğu ən qiymətli vasitədir. Sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, heç də hər yerdə qorunmur, müdafiə edilmir, zorakılıqlar, milli münaqişələr daha da qloballaşır, fiziki coğrafiyası genişlənir.

BMT-nin Baş katibinin hər il Beynəlxalq Sülh Günü münasibətilə dünya xalqlarına müraciətlərində deyilir ki, münaqişələrin səngiməsi, atəşkəs rejiminə tərəflərin qarşılıqlı şəkildə əməl etməsi təkcə insanların əmin-amanlıq şəraitində yaşaması deyil, eyni zamanda inkişaf, tərəqqi, bəşəri təhlükəsizliyə təminatdır.

Xalqımızın Beynəlxalq Sülh Gününü tam mənası ilə qeyd etməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindən keçir. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının hələ ki, səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin istər beynəlxalq tribunalardan, istərsə də doğma yurd-yuvasını itirmiş bir milyon qaçqın və məcburi köçkünlə görüşlərində bəyan etdiyi kimi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulan respublikamız münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə təsdiqləsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksini göstərməkdədir. 1994-cü ildən atəşkəs rejimi elan olunsa da, Ermənistan buna əməl etmir. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələbləri yerinə yetirilmir. Bu isə nüfuzlu beynəlxalq təşkilatların sülhün və təhlükəsizliyin bərpası istiqamətində apardığı siyasətə kölgə salır, onlara inamı azaldır.



# Sülh və insan azadlığı

Azərbaycan tolerant dövlətdir. Tolerantlıq milli-mənəvi dəyərlərlə bir sırada tutulur. Tolerantlıq sülhə, əmin-amanlığa çağırışdır. Azərbaycanda heç bir ayrı-seçkiliyə yol verilmir, insan hüquq və azadlıqları hamı üçün bərabər şəkildə təmin olunur. Əhali polietnik, çoxmillətlidi. Ölkədə 80-dən çox etnos münaqişələr müşahidə olunmadan, mehribançılıq və əməkdaşlıq şəraitində yaşayır. Bu faktlar ölkəmizdə azsaylı xalqların və etnik qrupların inkişafı üçün lazımi şəraitin yaradılmasını bir daha sübut edir.

Tarixən ölkəmizdə yaşayan insanlar arasında milli, dini ayrı-seçkilik qoyulmayıb, bu gün də qoyulmur. Tolerantlıq, milli-etnik dözümlülük, sıx əməkdaşlıq, bərabər imkanlarla iştirak milli mentalitetimizin ayrılmaz cəhətlərindəndir. Yüzilliklər boyunca Azərbaycanda müxtəlif xalqlar vahid və mehriban bir ailə kimi yaşayaraq bir-birinin dininə, inanc hisslərinə, ibadətgahlarına hörmətlə yanaşıb, zəngin mədəni müxtəlifliyini qoruyub saxlayıb.

Ordumuzun şəxsi heyəti ilə keçirilən kütləvi-tərbiyəvi iş və hüquq saatlarında dövlətimizin sülhə sonuclanmalarının və azadlıqlarının müdafiəsinə xüsusi önəm verməsi şəxsi heyətə çatdırılır, xüsusi təyinatlı tədris müəssisələrində "Sülh və insan hüquqları", "İnsan hüquq və azadlıqları", "Beynəlxalq humanitar hüquq" mövzusunda dərslər tədris olunmaqdadır.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülhlə sonuclanması üçün danışıqlar aparır. Bu, dövlət olaraq bizim sülh istəyimizdir. Azərbaycan Ordusu danışıqlar getdiyi bu müddətdə də döyüşlərə tam hazırdır - danışıqlar baş tutmasa, ordumuz torpaqlarımızı işğaldan döyüşlə azad edəcək.

Milli-mənəvi dəyərlərimiz də zorakılığı, qəddarlığı qəbul etmir. Ancaq Vətənlə, torpaqla bağlı olan istənilən məsələdə milli mentalitetimiz vətəndaşları dövlətin dayağı olan ordunun sırasına çəkir - cəmiyyət ordu ilə bir sırada olur. Sülh istəyən dövlət başqasının torpağına tamah salmaz. Torpaqlarımıza tamah salanları işğalçılıq niyyətindən ordumuzun yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan əsgərlərimizin döyüş əzmi və qələbə ruhu ilə daşındıracağıq. Bu da sülhsevərlikdir...

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İraqın şimalında 8 terrorçu zərərsizləşdirib



Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcıları İraqın şimalındakı Haftanin və Qara bölgələrində yerləşən terrorçu düşərgələrini bombalayıb. Hədəflərin dəqiq vurulması nəticəsində 8 terrorçu məhv edilib.

## Çanaqqala savaşından qalan partlamamış top mərmisi tapılıb



Çanaqqala bölgəsinin Eceabat rayonundakı Seddülbahir qalasında aparılan bərpa işləri zamanı daha bir 130 millimetrlik partlamamış top mərmisi aşkar olunub.

Ətrafdakı insanlar evakuasiya olunandan sonra mərmi minaaxtaranlar tərəfindən zərərsizləşdirilib. Ehtimal olunur ki, mərmi Çanaqqala savaşından qalıb. Bildirilir ki, bu vaxta qədər həmin ərazidən Osmanlı ordusuna məxsus Almaniya istehsalı olan 205 millimetrlik 23 mərmi aşkarlanıb.

## Əfqanıstan hökuməti "Taliban"la birbaşa danışıqlar aparmağa hazırdır



Rəsmi Kabil ölkə konstitusiyası çərçivəsində "Taliban" hərəkatı ilə birbaşa danışıqlar aparmağa hazırdır.

Bu barədə Əfqanıstan Prezidentinin MDB ölkələri üzrə xüsusi nümayəndəsi Məhəmməd İbrahim Tamil bildirib.

"Əfqanıstan hökuməti dialoqa, görüşlərə hər zaman hazır olduğunu dəfələrlə bəyan edib. Bu danışıqların Əfqanıstan konstitusiyası çərçivəsində aparılmasından başqa bizim heç bir ilkin şərtimiz yoxdur. Biz "Taliban" hərəkatı ilə istənilən birbaşa dialoqa və görüşə, onların tələbinə qulaq asmağa və bu məsələ ilə bağlı öz fikrimizi bildirməyə hazırıq", - deyə Tamil vurğulayıb.

Bir qədər əvvəl taliblərin səhra komandiri Şir Ağa hərəkatın vasitəçiləri gözləmədən hökumətlə sülh danışıqları aparılmasına tərəfdar olduğunu bildirib.

## ABŞ Prezidenti KXDR lideri ilə tezliklə görüşəcəyini bildirib



ABŞ Prezidenti Donald Tramp KXDR lideri Kim Çen İnlə tezliklə görüş keçirəcəyini bildirib.

Çərşənbə günü Ağ evdə jurnalistlər qarşısında çıxış edən Tramp bununla bağlı sualı cavablandırarkən "Biz tezliklə görüşəcəyik", - deyib. Lakin Vaşinqton Administrasiyasının başçısı mümkün sammitin vaxtını söyləməyib. Tramp 2018-ci ildə üçüncü dəfə - sentyabrın 18-dən 20-dək keçirilən Koreyalararası sammiti dəstəklədiyini də qeyd edib.

## Kim Çen İn Cənubi Koreya Prezidentinə iki ton göbələk bağışlayıb



KXDR lideri Kim Çen İn Cənubi Koreya Prezidenti Mun Ce-inə Pxenyan görüşündən xatirə olaraq iki ton qiymətli soni-posot (matsutake) delikates göbələyi bağışlayıb.

Bu barədə Prezident Administrasiyasının nümayəndəsi Seulda keçirilən brifinqdə bildirib. Onun sözlərinə görə, göbələklər indiyədək Şimaldakı qohumları ilə görüşə bilməyən bölünmüş ailələrin üzvlərinə paylanacaq.

"Biz daha yaşlı insanların arasından 4 min nəfər seçdik, onların hər birinə 500 qram göbələk veriləcək", - deyə administrasiya nümayəndəsi vurğulayıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Azərbaycan Ordusu - 100*

# Kursantlara Vətən daha yaxından tanıdılır



Tədris prosesi təkcə proqram materiallarının, bu və ya digər fənnin tədrisi ilə məhdudlaşmır. Bu proses həm də milli-mənəvi dəyərlərin aşılanması deməkdir. Bu baxımdan xalqın tarixi, dövlətin əhatələndiyi ərazinin təbii zənginliklərinin tanıdılması, sevdirilməsi də mühüm əhəmiyyətə malikdir. Bu fikirlər zabit kadrları hazırlığına da aiddir.

Azərbaycanda hərbi təhsil Cümhuriyyət dövrü ilə bağlıdır. Yaradılan, formalaşan hərbi təhsil müxtəlif dövrlərdə müxtəlif adlarla fəaliyyət göstərən məktəblərdə uğurla aparılıb.

Qroznıdan Gürcüstana - Duşeti şəhərinə, oradan Bakıya köçürülən hərbi məktəb fəaliyyətini Bakı Piyada Məktəbi kimi davam etdirdi.

1934-1935-ci tədris illərində Bakı Piyada Məktəbinin birləşmiş kursant bölüyünün Şahdağa alpinizm yürüşü oldu. Dəniz səviyyəsindən 4250 metr yüksəklikdə olan Şahdağa bu ekspedisiya sentyabrın 24-də başladı və iki sutkadan sonra yüksəklikdə bayraq dalğalandırıldı. Bu zirvənin fəthi Bakı Piyada Məktəbinin birləşmiş kursant bölüyünün əzminin, iradəsinin təntənəsi idi. O illərdə belə bir ekspedisiyanın təşkili və icrası asan deyildi; texniki vasitələr indiki qədər təkmilləşməmişdi, modernləşməmişdi. Ancaq təmsil etdiyi məktəbə şöhrət gətirmək istəyi vardı, bir də kifayət qədər yüksək fiziki hazırlıq, məsuliyyət vardı...

Şahdağın fəthinə aid sənədlər, marşrutun təsviri, fotoşəkillər Zaqafqaziya Hərbi Dairəsinin qərargahına göndərildi. Bu, müəyyən mənada ekspedisiya haqqında hesabat idi və bu yürüş məktəbə bu formatda şöhrət gətirmişdi.

Yaxşı, gərəkli təşəbbüs təqdir olunur, yaşadılır. Qələbə əzmi aşılayan bu tədbir sonralar da davam etdirilib; o əzm estafet kimi növbəti illərin kursantlarına ötürülüb. Belə ekspedisiya 1952-ci ildə də təşkil olunub və uğurla başa çatdırılıb. Kursant-idmançılar "SSRİ alpinisti" nişanı ilə təltif olunub. Bu, qazanılan uğurun təsdiqi idi. Ekspedisiyalar məktəbdə dağ hazırlığının tərkib hissəsindən biri oldu.

Ekspedisiya həm də tanıtma, sevdirmə missiyası olub. Şahdağın landşaftı buzlaqdı, şəlalələrdən, dağ yamaclarından ibarətdir, ecazkarlığı valehedicidir. Belə bir mənzərə təbii ki, kursantların vətənpərvərliyində əhəmiyyətli rol oynayacaqdı.

Şahdağ massivində dəniz səviyyəsindən 3700-3800 yüksəklikdə qayalar arasında iki yol var. Bu yüksəklikdə göl təbiətin möcüzəsidirmi? O göllərə yol



Şahdağın "Qərb darvazasından" başlayır. Qışda temperatur mənfi 20 dərəcədən də aşağı olur ki, bu da Şahdağ şəlalələrini dondurur.

Yarandığı gündən ordunu zabit kadrları ilə komplektləşdirən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ilə bağlı müxtəlif məzmunlu tədbirlər də həyata keçirilib. Məzmunundan, mahiyyətindən asılı olaraq belə tədbirlərin əksəriyyəti həm kursantların fiziki hazırlığının yüksəldilməsinə, həm də onların dünyagörüşünün formalaşmasına, vətənpərvərlik duyğularının çinləşməsinə yönəldilib. Zamanında müxtəlif adlarla fəaliyyət göstərmiş məktəbdə tədris prosesi ilə müəyyən mənada bağlı olmayan gələcək zabitlərin Vətənə sevgisini dərinləşdirməyə xidmət edən zirvələrin fəthi də həyata keçirilib. Bu tədbir, mahiyyəti etibarilə qələbə ruhunun formalaşdırılması deməkdir; təbiətlə mübarizədə qələbə qazanılır, qələbənin sevinci yaşanılır, yaşadılır. Belə tədbirlər zabitlərin rəhbərliyi ilə bu və ya digər yüksəkliyi fəth edən kursant idmançılar üçün təlim prosesində də əhəmiyyətli olur - məsuliyyət hissi təlimin tərkib hissələrindəndir...

Şahdağa Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildikdən, Ali Hərbi Məktəb Azərbaycanın yurisdiksiyasına keçdikdən sonra da ekspedisiya təşkil olunub.

**Polkovnik**
**Mirqiyas RÜSTƏMOV,**
**H.Əliyev adına AAHM**

# Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri Paşinyanın canına vəlvələ salıb

Sentyabrın 18-də Ermənistanın baş naziri Nikol Paşinyan işğal altında olan Azərbaycan torpaqlarına səfərindən sonra "Facebook" səhifəsində sərsəm bəyanatlarla çıxış edib. Paşinyan deyib ki, cəbhə xəttində gərginlik var amma vəziyyət tamamilə ordunun nəzarətindədir və hər hansı təxribata cavab verməyə hazırıq. Bununla yanaşı o bildirib ki, bu, müharibəyə təhrik etmək demək deyil. Biz sülh danışıqlarına hazırıq, amma döyüşə də hazırıq, bu, çox əhəmiyyətlidir.



Əvvəla, onu qeyd edim ki, Paşinyan münaqişənin sülh yolu ilə həllində maraqlı olsa idi, Azərbaycana qarşı təhdid dolu bəyanatlar səsləndirməz, danışıqlar masası arxasına keçərdi. Buradan belə aydın olur ki, o, heç də söylədiyi kimi, sülh danışıqlarının tərəfdarı deyil. Onun bu açıqlamasının sadəcə auditoriya üçün nəzərdə tutulduğu çox aşkardır.

Azərbaycan Ordusunun genişmiqyaslı təlimlərə davam etməsi Ermənistan hökumətinin, xüsusilə də Azərbaycana qarşı təhdid dolu bəyanatlar səsləndirən baş nazir Nikol Paşinyanın canına vəlvələ salıb.

Digər tərəfdən, Paşinyan "döyüşə də hazırıq" deməsi ilə əslində aprel döyüşləri və Günnüt əməliyyatlarından sonra erməni cəmiyyətində formalaşmış qorxu hissini gizlətməyə çalışır. Həmçinin onun bu açıqlaması Ermənistan ordusundakı sarsıntının aradan qaldırılmasına yönəlib. Lakin Paşinyan özü də çox gözəl bilir ki, onun bu cəhdləri əbəsdir. Çünki Azərbaycan Ordusu düşmənə elə bir zərbə endirib ki, bundan sonra bir daha çətin özünə gəlsin.

**Ehtiram AŞIRLI,**
**analitik-icmalçı**

# İdman

## UEFA Avropa Liqası: "Sportinq" - "Qarabağ" oyunu başa çatıb




Futbol üzrə UEFA Avropa Liqasında ilk oyuna çıxan Ağdamın "Qarabağ" komandası səfərdə Portuqaliyanın "Sportinq" klubu ilə qarşılaşıb. Matçın ilk dəqiqələrində "Sportinq" komandasını əks hücumda yaxalayan Qurban Qurbanovun yetirmələrinin vurduğu zərbə dəqiq olmayıb. Qarşılaşmanın 21-ci dəqiqəsində portuqaliyalıların müdafiədə kobud səhvini İnnosent Emeqara dəyərləndirə bilməyib. Hər iki komandanın cəhdlərinə baxmayaraq birinci hissə qolsuz heç-heçə ilə başa çatıb.

Qarşılaşmanın ikinci hissəsində meydan sahibləri 54-cü və 87-ci dəqiqələrdə iki qol vuraraq qələbə qazanıblar.

Beləliklə, oyun "Sportinq" klubunun qələbəsi ilə başa çatıb (2:0).

## Taleh Məmmədov beynəlxalq turnirin finalına yüksəlib



Belarusun paytaxtı Minskdə Olimpiya və dünya çempionu Oleq Karavaevin xatirəsinə yunan-Roma güləşi üzrə beynəlxalq turnir start götürüb.

Yarışda baş məşqçi Şaban Donat və məşqçi Rövşən Bayramovun rəhbərliyi altında Eldəniz Əzizli (55 kq), Murad Məmmədov (60 kq), Taleh Məmmədov (63 kq), Kamran Məmmədov (67 kq), Rafiq Hüseynov (82 kq), İslam Abbasov (87 kq), Orxan Nuriyev (97 kq) və Oyan Nazariani (130 kq) ölkəmizi təmsil edirlər.

İlk yarış günündə Taleh Məmmədov bütün rəqiblərinə qalib gələrək finala yüksəlib. Yarımfinalda büdrəyən Orxan Nuriyev bürünc medal uğrunda güləşəcək. Rafiq Hüseynov isə təsəlliverici qarşılaşmaya çıxacaq. Turnirin hakimləri arasında həmyerlimiz Elman İsmayılov da var.

## Azərbaycanlı qrossmeyster Men adasında turnirdə iştirak edəcək



Oktyabrın 20-dən 28-dək Men adasının paytaxtı Duqlasda "Isle of Man International" şahmat turniri keçiriləcək. Şahmatçılar üç qrupda yarışacaqlar.

"Masters" turnirində iştirak etmək üçün 173 şahmatçı, o cümlədən 90 qrossmeyster və "yeddiyüzlər" sırasına daxil olan 20 şahmatçı müraciət edib. Onların sırasında Azərbaycan təmsilçisi Arkadi Naydiç də var. Reytinq üzrə turnirin lideri hollandiyalı Aniş Qiridir. Azərbaycanlı qrossmeyster isə bu göstərici üzrə on ikincidir.

Turnirin birinci mükafatı 50 min funt sterlinq məbləğindədir. "Isle of Man International" turniri İsveçrə sistemi üzrə 9 turda keçiriləcək.

## Voleybol üzrə Azərbaycan millisi Bakıda Rusiyanın "Uraloçka" klubuna qalib gəlib



Qadın voleybolçulardan ibarət Azərbaycan millisi dünya çempionatına hazırlığı Bakıda davam etdirir.

Millimiz Bakı toplanışı çərçivəsində Azərbaycan Voleybol Mərkəzində Rusiyanın "Uraloçka" klubu ilə yoxlama oyunu keçirib. Görüş yığmamızın 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

Millimiz toplanış çərçivəsində Rusiyanın digər klubu "Dinamo Krasnodar" ilə yoxlama oyununda da gücünü sınayıb və 3:0 hesabı ilə üstün olub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 695
Nüsxə 3525